**AZƏRBAYCAN RESPUBLIKASI**

*Əlyazması hüququnda*

# TÜRKİYƏ CÜMHURİYYƏTİNDƏ EGEY BÖLGƏSİ MİLLİ GEYİMLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6218.01 – Dekorativ-tətbiqi sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Asiye Salih qızı Aslan Özşen**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | sənətşünaslıq üzrə elmlər doktoru, professor<br>**Sevil Yusif qızı Sadıxova** |
| Rəsmi opponentlər: | Xalq rəssamı, professor<br>**Siruz Yadulla oğlu Mirzəzadə** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Arzu Nizami qızı Zeynalova** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Asya Əlimövsüm qızı Şirəliyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | Xalq rəssamı, professor<br>_______________ **Fuad Məmməd-Emin oğlu Salayev** |
| Dissertasiya şurasının elmi katibi: | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>_______________ **Xanım Zəlimxan qızı Əsgərova** |
| Elmi seminarın sədri: | Xalq rəssamı, professor<br>_______________ **Arif Möhübəli oğlu Əzizov** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir xalqın milli geyimi digər maddi və mənəvi dəyərlərlə birlikdə folklor xalq mədəniyyətinin əsasını təşkil edir. Folklor tədqiqatçılarının fikrinə əsasən, xalq, mədəni və ictimai xüsusiyyətləri olan insan birliyi kimi qiymətləndirilir. Hər bir xalqın sahib olduğu folklorun maddi mədəni dəyərlərini, adət-ənənələrini öyrənən sahəyə etnoqrafiya deyilir. Etnoqrafiya geyimi də özündə birləşdirdiyi üçün geyim də maddi dəyərlərdən biri hesab edilir. Bununla yanaşı etnoqrafiya geyimin daşıdığı simvollarları və onların müxtəlif mənaları ilə cəmiyyətin sosial-iqtisadi dəyərlərini ortaya çıxartması həm də milli mədəniyyət (əvvəl məhəlli daha sonra da bəşəri) formasına salması və insanların ortaq mədəniyyətinə töhfələr verməsi ilə də mənəvi bir dəyər hesab edilə bilər.

Eyni zamanda geyimi həm insan əməyinin nəticəsində meydana gəldiyi, həm də tarixən insanları estetik baxımdan dəyişdirən sənət əsəri olduğu kimi dəyərləndiririk. Geyim həm aid olduqları cəmiyyətlərdəki inkişaf və dəyişikliyi göstərməsi baxımından, həm də eyni cəmiyyətlərin mədəni dəyərlərini gələcəyə daşıyan ünsürlər hesab edildiyi üçün tarixi sənəd əhəmiyyəti kəsb edir. Geyim, bütün cəmiyyətlərin mədəni təcrübələri, keçmişdəki mədəni zənginliklərinin analiz edilməsinin nəticəsi kimi əldə olunan sintezdən sonra formalaşır. Bu sintezlərin vasitəsi ilə keçmişdən bugünədək gələn gücün köməyi ilə daha sonrakı mədəni dəyərlərin möhkəmliyi fomalaşır. Bir millət yaşadığı cəmiyyətin mədəni dəyərlərini sonsuza qədər saxlaya bilmək üçün bir tərəfdən milli dəyərlərinə bağlı olmalı, digər tərəfdən isə elm və texnologiyanın inkişafından bəhrələnməlidir.

Türkiyə Respublikasının yaradıcısı ulu öndər Mustafa Kemal Atatürk türk mədəniyyətinin təməli hesab edilən türk folkloru ilə birbaşa özü maraqlanmışdır. Onun "Türkiyə Respublikasının təməli mədəniyyətdir" ifadəsi türk mədəniyyətinə verdiyi əhəmiyyətin vacibliyini göstərərkən, eyni

zamanda bu dövlətin rifahı üçün də mədəniyyətin keşiyində duracaq şəxslərin türk gəncliyi olduğunu bildirmişdir. Bu səbəblə də Türkiyə Respublikasının mədəniyyəti ilə bağlı yazılan hər bir tədqiqat işi öz yerinə qoyulan kərpic funksiyası daşıyaraq Türkiyə Respublikasının sonsuza kimi mövcudluğuna xidmət etmiş olacaq. Təməlini öz mədəniyyətindən götürməyən bir cəmiyyət daim məhv olmaq təhlükəsiylə üz-üzədir. Bütün cəmiyyətlər özünü belə bir aqibətdən ancaq keçmiş mədəniyyətini qoruyub-saxlayaraq və bu mədəniyyəti universal mədəniyyət formasına salaraq inkişaf etdirə bilər. Beləliklə, Türkiyə Respublikasına və bütün türk torpaqlarına aid sənət tarixi mirasının ayrılmaz hissəsini formalaşdıran milli geyimin gənc nəsillərə həm müasir dövrdə, həm də gələcəkdə öyrədilməsi və yaşadılması ilə cəmiyyətin mədəni qatını gücləndirmiş olacaq. Bu mədəni qatın inandırıcılığı isə tarixən Türkiyənin müxtəlif **bölgələrində** (Egey bölgəsi kimi) formalaşan geyim mədəniyyətinin, estetik vizual baxımdan inandırıcı formaya düşməsi və eyni zamanda geyimlərinin həm əks etdirdiyi tarixi dövrə, həm də geyimin xüsusiyyətinə cavab vərəcək standartlarda olmasına bağlıdır. Milli folklorda özünü göstərən və mədəniyyət tarixi ünsürü sayılan geyim ilk növbədə hər bir xalqın milli xüsusiyyətini əks etdirir. O baxımdan milli bayramlarda, eyni zamanda xüsusi günlərdə daha çox istifadə edilən milli geyimlər haqqında geniş tədqiqat aparılaraq bu tədqiqatın gənc nəsillər tərəfindən öyrənilməsi onun sonsuza kimi yaşamasının təminatıdır. Bu gün türk xalqı milli geyimlərindən hələ də bəzi toy və el şənliklərində, bayramlarda istifadə edir. Bütün bunlara görə də gecikmədən, yəni bu milli zənginlik tamamən məhv olmadan müxtəlif elmi tədqiqatlar yazılmalı, kitabxanalara yerləşdirilərək gənc nəsillərin öyrədilməsinə şərait yaradılmalıdır. Bu vasitə ilə bütün türk bölgələrindəki geyimləri tədqiq edərək, türk milli geyimi haqqında geniş məlumat vermək mümkün olacaq. Nəticədə isə özümüzə məxsus geyimlərin yaradılmasına şərait yaratmaq mümkün olacaq. Hazırda Türkiyədəki geyim mədəniyyətinin dəyişdirilməsinin qarşısının alınmasının qaydası budur. Geyim mədəniyyətinə və bir milləti

millət edən mədəni dəyərlərə qarşı yönələn imperializmə qarşı qoyulan bu tədqiqat, antimperialist mövqedən çıxış edərək mədəniyyətə dəstək məqsədi güdür.

Türkiyənin milli geyimləri ilə bağlı müasir tarix və sənətşünaslıq sahələrində indiyədək yazılmış müxtəlif elmi məqalələr, kitablar və tədqiqat əsərlərindən istifadə edilməklə, Egey bölgəsinin 19-cu əsr milli geyimləri barəsində qələmə alınmış tam elmi-tədqiqat işi yazılmışdır. Tədqiqat zamanı istifadə olunan əsərlərin başında professor Neriman Görgünayın müəllifi olduğu "Geleneksel türk giyim tarihi"[1] kitabı gəlir. Bu kitabda həm Egey bölgəsinin geyim mədəniyyətini formalaşdıran Türkmən-Yörük geyim mədəniyyəti haqqında yazılmış, həm də Türkmən geyim mədəniyyətinin forma, rəng, naxışlarının bütün türk dünyası geyim mədəniyyəti ilə müqayisəsi olduqca faydalı olmuşdur. Osman Həmdi Bəyin "1873 Yılında Türkiye'de Halk Giysileri"[2] adlı kitabı isə **XIX əsr Osmanlı imperiyası zamanında** (Egey bölgəsinin bəzi şəhərlərini əhatə edəcək formada) bəzi şəhərlərdəki geyimlərin, məsləklərə və ya inanca görə təsnifatını göstərmişdir. Qeyd etdiyimiz bu kitabın da tədqiqat işimizin yazılmasında xeyli köməyi olmuşdur. Türk etnoqraflarının ən görkəmli şəxslərindən biri sayılan Sabiha Tansuğun yörük geyim mədəniyyətindən bəhs etdiyi bir neçə məqaləsi ilə yanaşı "Türkmen Giyimi"[3] adlı kitabında da Türkiyədəki bütün yörüklərin geyimlərinə nümunələr verilmişdir. Bununla yanaşı, Egey bölgəsində yaşayan bəzi yörük dəstələrinin geyim zənginliklərindən də bəhs edilməsi və bu çeşidliliyin olduqca detallı formada əks edilmişdir. Müəllifin "Anadolu Giyim Kültürü"[4] kitabı da Türkiyənin bütün bölgələri ilə yanaşı,

---

[1] Görgünay, N. Geleneksel Türk Giyim Tarihi / N. Görgünay – İzmir: Grafmat Basım San. Ltd.Şti. –2008 – 590 s.

[2] Hamdi, O., Launay de M. 1873 Yılında Türkiye'de Halk Giysileri / O. Hamdi, Launay de M. – Istanbul: Sabancı Ünivərsitesi Yayınları – 1999 – 461 s.

[3] Tansuğ, S. Türkmen Giyimi / S.Tansuğ – İstanbul: Akbank Kültür Yayınları – 1985 – 64 s.

[4] Tansuğ, S. Anadolu Giyim Kültürü // T.C. Kültür və Turizm Bakanlığı Yayınları – 2006 – 105 s. (s.36-63, 78-85).

Egey bölgəsinə aid şəhərlərə məxsus geyimlərin rəngli, bütün detalları ilə əks etdirən albomun hazırlanması üçün ilham qaynağı olmuşdur. Bu qaynaq da sırf Egey bölgəsi geyiminə məxsus olmayaraq, ölkəyə aid geyim fotolarını özündə ehtiva etmişdir. Dosent Umay Günay "Tarihi Türk Kadın Kıyafetleri"[5] adlı kitabında Türkiyənin bütün şəhərlərindəki milli qadın geyimlərinin şəkillər vasitəsi ilə göstərilməsi də dissertasiyanın albom hissəsinin hazırlanmasına kömək edən çox dəyərli bir mənbədir. Türkiyənin milli geyimləri mövzusunda əhəmiyyətli vizual qaynaq təqdim edən Mehmet Özelin hazırladığı "Folklorik türk kıyafetleri"[6] adlı kitabda isə Türk milli geyimləri, xüsusən, Egey bölgəsi şəhərlərini əhatə edən nümunələr göstərilmişdir. Azərbaycanın milli geyimləri mövzusunda əhəmiyyətli vizual qaynaq təqdim edən görkəmli sənətşünas, akademik Rasim Əfəndinin "Azərbaycan geyimi" və "Azərbaycan zərgərlik sənəti"[7], sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevil Sadıxovanın "XIX əsr Azərbaycan geyimləri dekorativ-tətbiqi incəsənətin inkişaf səviyyəsinin göstəricisi kimi" və "Azərbaycan zərgərlik sənəti çoxtərəfli qarşılıqlı mədəni əlaqələrin inkişafı kontekstində"[8], Sabirə Dünyamalıyevanın "Azərbaycan geyim mədəniyyətinin tarixi"[9], adlı kitablarında Azərbaycanın milli geyimləri bütün incəlikləri ilə izah edilmiş, nümunələr göstərilmişdir ki, (Türk və Azərbaycan milli geyimlərinin oxşar və fərqli detallarını ayırd etməyimizə) bu da dissertasiya işində müqayisəli təhlil üçün geniş imkan yaratmışdır.

---

[5] Günay, U. Tarihi Türk Kadın Kıyafetleri / U. Günay İstanbul: Ali Rıza Baskan Güzel Sanatlar Matbaası A.Ş. – 1986 – 175 s.

[6] Özel, M. Folklorik Türk Kıyafetleri / M.Özel – Ankara: TÜPRAŞ Yayınları – 1992 – 143 s.

[7] Əfəndiyev, R. Azərbaycan geyimi / R.Əfəndiyev – Bakı – 1963; Azərbaycan zərgərlik sənəti / R.Əfəndiyev – Bakı – 1964.

[8] Sadıxova, S. XIX əsr Azərbaycan geyimləri dekorativ-tətbiqi incəsənətin inkişaf səviyyəsinin göstəricisi kimi / S.Sadıxova – Bakı: Şərq-Qərb – 2013 – 164 s.; Azərbaycan zərgərlik sənəti çoxtərəfli qarşılıqlı mədəni əlaqələrin inkişafı kontekstində / S.Sadıxova – Bakı: Şərq-Qərb – 2013 – 220 s.

[9] Dünyamalıyeva, S. Azərbaycan geyim mədəniyyətinin tarixi / S.Dünyamalıyeva – Bakı: Nağıl evi – 2003 – 560 s.

Bu tədqiqat işinin yazılmasının ən vacib səbəblərinin başında son illərdə Türkiyə Respublikasının milli geyimlərinin üzərində dolaşan mövhumatın qara buludları, əsasən də xalqın dini geyimlərə qarşı olan zəifliyindən istifadə edilməsi olmuşdur. Bu gün xalqın öz milli tarixinə olan ürəkaçmaz münasibət ilə qarşılaşırıq. Türk millətinin bayatıları, nəğmələri, xalq yaradıcılığı olduqca zəngin və çeşidlidir. Eynilə geyim, baş örtükləri və aksesuarları kənddən kəndə fərqlənir. Bu fərq həm əks etdirdiyi simvol, həm də sosiloloji ifadə baxımından olduqca zəngin xəzinədir. Türk mədəniyyətində dini təyinatlı geyimin demək olar ki, məcburiyyətə çevrilməsi milli geyimlərin məhvinə gətirib çıxara bilər. Bu halla mübarizə aparmaq hər türk övladının borcudur. Halbuki, son zamanlarda dini məcburiyyət kimi göstərilən geyimlər bu zənginliyin ikinci alternativi kimi təqdim edilərək ərəb geyim anlayışını türk millətinə mənimsədilməyə çalışmaqdan savayı bir şey deyil. Bu səbəblə də türk elm xadimlərinin üzərinə ciddi iş düşür. Bu yolla da xalqımızın hansı zəngin dəyərlərə sahib olduğunu onlara xatırlatmış olarıq. Çünki, milləti millət edən onların mədəni dəyərləridir. Geyimdən başlayaraq, dili, musiqisi dəyişdirilmiş bir millət dəyərlərini itirdikdə məhv olmağa məhkum olacaq. Bu baxımdan, təqdim edilən mövzunun tədqiq və təhlili böyük əhəmiyyət kəsb edir və aktuallığı ilə seçilir.

**Tədqiqatın obyekti və predmeti.** Türkiyə Cümhuriyyəti dövründə Egey bölgəsində istifadə olunan milli geyim dəstləri tədqiqatın obyekti kimi götürülmüşdür.

Tədqiqatın predmetini;

- Egey bölgəsi şəhərlərindəki bəzi Etnoqrafiya muzeylərində və şəxsi kolleksiyalarda olan milli geyim nümunələrinin tədqiqi,
- Tədqiqatın predmetini, Egey bölgəsinin şəhərlərindəki Dövlət Etnoqrafiya muzeylərində və şəxsi kolleksiyalarda olan milli geyim nümunələrinin tanıdılması və işıqlandırması, Türk geyim lüğətinin zəngin məzmunlu günlərinə qayıtmasına çalışması, araşdırılan bölgənin Muğla, Kütahya, İzmir, Denizli, Aydın və Manisa vilayətlərində XIX əsr aid geyim

nümunələrinin semantik, bədii və sosioloji cəhətlərinin təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Osmanlı imperiyasının son dövrlərinə təsadüf edən və XIX əsrdən bizə miras qalan, bu gün də ölkənin milli mədəniyyəti kimi qəbul edilən geyim mədəniyyətini araşdırmaq və gənc nəslin yaddaşında həkk etmək təşkil edir. Bu tədqiqatı dövrümüzdəki qlobalizmin məhv siyasətinə qarşı çıxaraq, mədəniyyətin zəngin dəyərlərinin qorunması yolunda ciddi cəhd kimi qəbul etmək olar. Bu məqsəddən çıxış edərək dissertasiyanın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- Türkiyənin Egey bölgəsinə daxil olan Muğla, Kütahya, İzmir, Denizli, Aydın və Manisa şəhərlərində formalaşan qadın və kişi geyimlərini tədqiq və təhlil etmək;
- Türkiyənin müasir geyim mədəniyyətində unudulmuş XIX əsr milli geyimlərini toplamaq, təsnif etmək və geyimlərə aid terminləri aşkar edib, Türk dilinin zənginliyinə xidmət edə biləcək terminoloji lüğət tərtib etmək;
- Geyim mədəniyyətinin insanlar arasındakı ünsiyyət vasitəsi hesab edilməsi istiqamətindən çıxış edərək, istifadə olunan rəng, material və ornamental tərtibatının bədii təhlilini aparmaq;
- Egey bölgəsinin əksər kəndlərində fərqli forma, tərzə sahib geyimlər üzərində etnoqrafik araşdırmalar aparmaq;
- Türkiyənin Egey bölgəsinin geyim dəstlərinə daxil olan zərgərlik nümunələrinin bədii təhlilini aparmaq;
- Bugünki dövrdə həm biçim, həm də müasir materiallardan hazırlandığı üçün orijinallıqdan uzaqlaşan və xalq şənliklərində istifadə edilən milli geyimləri araşdırmaq;
- Türkiyənin Egey bölgəsi şəhərlərinin, rayon və kənd geyimlərinin oxşar və fərqli cəhərlərini müəyyənləşdirmək;
- XIX əsrdə qadın və kişilərin gündəlik həyatda, toy və mərasimlərdə istifadə etdikləri geyimləri ilə hansı sosioloji ünsiyyət dilini önə sürdüklərini vurğulamaq.

**Tədqiqat metodları.** Tədqiqat işində müqayisəli tarixi təhlildən istifadə olunub ki, bu metod səbəb-nəticə əlaqələrini

vurğulamağa, məntiqi zəncir qurmağa imkan verir. Bundan başqa dissertasiyada tarixi-mədəni və tarixi-bədii yanaşmadan istifadə edilmiş, əyani material hərtərəfli təhlil edilmişdir. Tədqiqat işində geyimlərin formasının təsviri və təhlilinə yönəlmiş formal-stilistik metoddan da geniş istifadə olunmuşdur ki, bu da geyim dəstlərinin struktur quruluşunu, kanonlarını, növünü və görünüşünü araşdırıb, tədqiq etməyə imkan yaradıb. Türkiyənin Egey bölgəsi şəhərlərinin, rayon və kənd geyimlərinin müqayisəli təhlili aparılmışdır ki, bu da ayrı-ayrı rayonlarda istehsal olunan geyim, zərgərlik nümunələrinin oxşar və fərqli cəhətlərini üzə çıxarmağa imkan vermişdir. Bundan əlavə, arxiv sənədləri, keçmişdə yazılmış kitab və nəşrlər, şəxsi fotoşəkillər tədqiq, təhlil edilmiş, müasir sənətşünaslığa dair elmi-nəzəri ədəbiyyatdan istifadə edilmişdir. Bu araşdırmanın həyata keçirilməsində həm muzeylərdəki kolleksiyalardan, şəxsi geyim kolleksiyalarından, həm də bu gün ahıl yaşda olan insanlarla fərdi müsahibələrdən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Sənaye həyatının və texnologiyanın gətirdiyi yeniliklər çıxarıb XIX əsr

Egey bölgəsinə aid olan, itən, bu gün demək olar ki, işlədilməyən və ya unudulmaq ərəfəsində olan təxminən cəmi 800 terminin unudulmasına gətirib çıxarmışdır;

- XIX əsr Egey bölgəsinə istifadədə olan bir çox geyim nümunələri, o

cümlədən çəpkən, yaşmaq, şalvar, məst, məcdiyyə (türkcə məcidiyyə), ləbbadə (türkcə libadə), külah, qurşaq (türkcə kuşak) və s. həmin dövr Azərbaycan milli geyimlərində də işlənilib ki, bu da iki türk xalqının ortaq mədəniyyətə sahib olduğunun sübutudur.

- XIX əsr Egey bölgəsinin milli geyimi, onun rəngi, materialı, konstruktiv forması, tikmə texnikası, bəzək-zinət əşyalarının müxtəlifliyi, zənginliyi həm bədii, estetik, həm də yaradıcılıq baxımından bir çox məna kəsb edir və zəngin simvollara malikdir;

- Egey bölgəsinin XIX əsr milli geyimləri insanların maddi imkanlarını (varlı-kasıb və s.), sosial durumunu (kəndli, şəhərli, əkinçi, tacir, efe, zeybek, qızan və s.), yaşını (gənc, qoca və s.), ailə vəziyyətini (subay, nişanlı, evli, dul, uşaqlı və ya uşaqsız) əks etdirir;

- Egey bölgəsinin XIX əsr milli geyimləri xalqın dini inancları (müsəlman-ələvi-yəhudi-xristian və s.), hissləri (eşq-ayrılıq-xoşbəxtlik-bədbəxtlik və s.), həmçinin bəzi mücərrəd subyektlərin sosioloji simvollarını çatdırır və izah edir;

- XIX əsrdə Osmanlı imperiyası dövründə türk qadınlarının ictimai həyata daxil olmaması, cəmiyyətdə aktiv rolu və hüququ olmadığından onlar ictimai statuslarını, hiss və duyğularını libaslarına, ləvazimatlarına, paltarlarına tikdikləri detallarla çatdırır, ətrafdakıları ilə ünsiyyət qururlar. Bu geyimlər özünəməxsus dildə yazılmış şer, hekayə, musiqi, bəstə kimidir. Onlar türk mədəniyyətinin bütün incəliklərini özündə daşıyan bədii xüsusiyyətə malikdirlər;

- XIX əsrdə Osmanlı İmperiyasında, xüsusən Egey bölgəsində heç bir texnologiya, istehsal və sənaye olmadığı üçün bütün geyim materialları və tikiş-naxış texnikası əllə hazırlanır, materiallar təbii yolla, təbiətdən alınaraq əldə olunur. Geyimlərdə geyim dəstlərinin kompozisiya həlli və bədii tərtibatı qadınların estetik, bədii, emosional, sosial yönlərini üzə çıxarır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində Türkiyənin XIX əsr Egey bölgəsinə aid milli geyimləri təhlil edilmiş və aşağıdakı nəticələr əldə olunmuşdur:

-Türkiyənin XIX əsr Egey bölgəsinin Muğla, Kütahya, İzmir, Denizli, Aydın, Manisa geyimlərinin, onun konstruktiv həllinin və bədii tərtibatının, mədəni zənginliyə əsaslanan sosial simvollarının araşdırılmasına cəhd göstərilmişdir;

- Egey bölgəsinin göstərilən şəhər və kəndlərində vaxtilə istifadədə olan qadın, kişi və gəlinlik geyimlərinin konstruktiv həlli, bədii tərtibatı geyim tərzinin fərqli və oxşar cəhətlərini üzə çıxarmışdır;

- Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq Türkiyənin XIX əsr Egey bölgəsinin bədii xüsusiyyətlərinin araşdırılması tədqiqat obyektinə çevrilmişdir;

- İlk dəfə olaraq Türkiyənin XIX əsr Egey bölgəsinin geyim dəstlərinin XIX əsr Azərbaycan milli geyimləri ilə müqayisəli təhlilinin aparılması nəticəsində eyni konstruktiv formaya və oxşar terminlərə malik geyim nümunələri aşkara çıxarılmışdır;

- Bu araşdırmada Egey bölgəsinin gündəlik geyim dilində demək olar ki, heç istifadə olunmayan, itən və ya unudulan təxminən 800 geyim sözü müəyyən edilib. Orta hesabla 800-ə yaxın olan bu geyim sözlərindən 130-a yaxınını terminoloji lüğətdə, qalan sözləri isə (19-cu əsrdə olduğu kimi) dissertasiyada izah etməklə türkcənin dil zənginliyinə daxil edilmişdir.

- XIX əsr Egey bölgəsinə istifadədə olan bir çox geyim nümunələri, o

cümlədən çəpkən, yaşmaq, şalvar, məst, məcdiyyə (türkcə məcidiyyə), ləbbadə (türkcə libadə), külah, qurşaq (türkcə kuşak) və s. həmin dövr Azərbaycan milli geyimlərində də işlənilib ki, bu da iki türk xalqının ortaq mədəniyyətə sahib olduğunun sübutu olmuşdur.

- Türkiyə geyim mədəniyyətinin estetik baxış istiqamətinin tədqiqi sənətşünaslıq elmində olan boşluqları doldura bilər.

- **Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Milləti millət edən onların mədəniyyətləridir. Bu tədqiqat geyim mədəniyyəti ilə bağlı unudulmuş anlayışların əsasən də XIX əsr Egey sonası maddi mədəniyyət ünsürlərindən olan geyim mədəniyyətinin öyrənilməsi üçün vəsait kimi istifadə edilə bilər. Bundan əlavə, bu tədqiqat işinin digər mühüm cəhəti də hər bir paltarın – qadın, kişi və gəlinlik nümunələrinin türk geyim mədəniyyəti dilinin bütün xüsusiyyətləri ilə (keyfiyyət və kəmiyyət baxımından) unudulmaması və gələcək nəsillərə ötürülürməsi, onun material, hazırlanma üsulları, istifadə və bədii-sosioloji mənaları baxımından ətraflı izah olunmasından irəli gəlir.

Tədqiqat işi rəssamlıq təmayüllü ali və orta təhsil ocaqlarında, sənətşünaslıq, dekorativ-tətbiqi sənət ixtisasları

üzrə təhsil alan tələbələrə köməkçi dərs vəsaiti kimi istifadə oluna bilər. Dissertasiya həmçinin, etnoqraf, tarixçi, folklorşünas və filoloqların yararlana biləcəyi dəyərli vasitədir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında müzakirə edilmişdir. Tədqiqat işinin əsas məzmunu, nəzəri müddəa və nəticələri dissertantın mövzu ilə əlaqədar Azərbaycanda, Türkiyədə və xaric ölkələrdə nəşr edilmiş 11 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, altı paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və terminoloji lüğətdən ibarətdir. O cümlədən: Giriş – 16.144, 1.1. – 33.447, 1.2. – 35.194, 2.1 – 38.699, 2.2. – 26.066, 3.1. – 35.695, 3.2. – 35.465, Nəticə – 12.155. işarə olmaqla dissertasiyanın ümumi həcmi 234.633 işarədən ibarətdir.Tədqiqatın məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində ayrıca cilddə (dissertasiyaya əlavədə) təqdim olunmuşdu. Dissertasiyada geyim mədəniyyətində əsrlər boyu istifadə olunan, lakin son dövrdə işlədilməyən və artıq yaddaşlardan silinməkdə olan sözlərin terminoloji lüğəti də əlavə olunub.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Girişdə** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın **“Türkiyənin Egey bölgəsinin Muğla və Kütahya geyimlərinin bədii xüsusiyyətləri”** adlı **I fəslin “Muğla və Kütahya bölgəsinin üst geyim dəstlərinin bədii xüsusiyyətləri”**ndən bəhs edən **1 paraqrafında** göstərilən bölgələrin şəhər və kəndlərində istifadədə olan gündəlik və toy qadın, kişi geyimləri araşdırılır. Qeyd olunur ki, Muğla qadınlarının geniş yayılmış geyim nüsxəsini uzun qollu və yumru yaxası olan don – entari adlı xüsusi paltar təşkil edirdi. Muğla mərkəzində yaşayan qadınlar kəndlərdən fərqli olaraq, üst geyimində “bürümcək” – əl dəzgahı ilə toxunan parça növü, “çəpkən-fermene” – qısa dar jilet, “şal”, “camadan” – diaqonal düyməli, ipək və ya sap tikməli, bir növ qısa jilet, “qırıq don-topdon-topandon” – çox enli parça ilə tikilmiş, belinə yığılmış şalvar növü, “maraba” – əl dəzgahı ilə toxunmuş parçadan hazırlanmış, parıltı ilə işlənmiş kəmər, “üç ətək”, “salvar”, “çaşır” – ortada sıx büzməli, ayağı aşağı bükülmüş şalvar və kəmərdən istifadə edirdilər. Muğla rayonlarında şalvar tikilişində fərq var idi. Belə ki, Fethiyedə şalvar yerinə “qıl potur-saç potur”, Marmarisdə rezinli “ayaqlıq”, Köyceğizdə və köçkünlər arasında isə “top don” deyirdilər. Həm Muğlalı, həm də kəndli qadınların özlərinə məxsus “qırıq pısatları” (ipək parçadan tikilmiş şalvar növü) vardır. Bədənin üst hissəsi köynək və onun üzərindən isə korset kimi sinəyə qədər uzun bir mintan geyilirdi.

Muğlanın mərkəz kəndlərindən olan Düğerek kəndində qadınların istifadə etdiyi geyimlərdən biri də “çapıklı don” isə “kapıt bezi” (kapıt parçası) ya da “dimi” kimi pambıq parçalardan hazırlanırdı. Gündəlik istifadə üçün açıq tonlu kiçik çiçək naxışlı sadə pambıq çitdən hazırlanmış alt paltarları da var idi ki, evli qadınlar onun aşağı hissələrini corabın içinə, subay qızlar isə üstünə salırdı.

XIX əsrdə Bodrumda yaşayan yunanlar da türklərlə eyni tərzli geyimlər geyinirdilər. Aradakı tək fərq isə türklərin donlarının iplərinin qırmızı olması, yunan geyim iplərinin isə paltarla eynilik təşkil edən parçadan hazırlanması idi. Beləliklə, qeyri-müsəlmanlar bu geyim detalı ilə bir-birindən seçilirdilər. Marmarisin mərkəzində və kəndlərdə yaşayan qadınların

geyimləri arasında çox az fərqlər mövcuddur. Kənd qadınları şalvar əvəzinə şalvarın başqa bir forması olan tünd göy rəngli pamazı və ya çiçəkli kətandan hazırlanan "ayaqlıq" geyinirdilər.

Kütahyada və ətraf rayonlarda içi astarlı uzun qollu çəpkən əsasən üstü naxışlanmış məxmər parçadan hazırlanırdı. Kütahya mərkəzinin çəpkən naxışları daha sıx, ətraf rayonlarda isə dağınıq və az idi. Naxış motivləri əsasən çəpkənin ön, kürək və qolları həm gümüşü, həm rəngli saplarla tərtib olunurdu.

Respublikanın elanının ilk illərində Muğlada zeybək, efe (igid, qəhrəman kişi) geyimlərindən istifadə edilmişdir. Efelər əyinlərinə pencək yerinə "işləməli çəpkən", altdan "naxışlı köynək" geyir, bellərində naxışlı "xəlbir" kəmər, ona taxılan bıçaq və beldə "fişəklik" (silahlıq) istifadə edirdilər. Şalvar yerinə naxışlı "potur" adlı qısa şalvar geyinirdilər. Kütahyada yaşayan efelər mavi "çəpkən", eyni parçadan hazırlanan don, yaxası qırmızı naxışlı "ipək bürümcük köynək"in üstündən kutnu parçadan hazırlanan "mintan", onun belində yundan toxunmuş "şal kəmər" və üzərindən isə zərli sapla naxışlanan "naxışlı çevre"dən istifadə edirdilər.

Muğlada toylarda geyilən "temel devrən" (gəlinlik, toy paltarı) Maraş naxışı adlandırılan, gümüş saplarla naxışlanan - "saray naxışı" ilə tərtib olunmuş tünd qırmızı və ya bənövşəyi rəngli məxmər geyimdir. Bodrumun varlı ailələrində bu libas ancaq xınalarda geyinilir, hətta borc verilirdi.

Dövrümüzdə istifadə edilməyən, ağır və çox qiymətli bir əntiq geyim sayılan altınoluk keçmişdə kütahyalı gənc qız və gəlinlər tərəfindən istifadə edilirdi. Adının altınoluk olması üzərinə tətbiq edilən naxışlarda istifadə edilən qızılın olmasından qaynaqlanır.

Əsasən gənc qız və gəlinlər tərəfindən geyinilən "Fermenə" 1840-cı illərə qədər Bursa və Bilecikdə toxunan məxmərin üzərinə xalis gümüşdən hazırlanan naxışlı, geniş qollu, uzunluğu belə qədər olan dik yaxalı pencəklərdəndir. Kütahya qadınlarının ağır geyim kimi qiymətləndirdiyi cehiz və toy paltarlarından olan "əyrimli dəst" adını motiv işlənməsindən alan digər bir qadın

geyimi yengələr və qohumlar tərəfindən toylarda geyinirdi. Əyrimli paltarların belinə "kəmər" bağlanırdı.

Kütahya toy geyimlərində gəlinlər əyinə "köynək", "al şalvar", "aynalı", "bəzəkli üçətək" (zərli duvağı ilə dəst) geyinirdilər. "Bino" başlıqlı, gəlin geyimində isə "ipək al şalvar", "gümüş kəmər", "al köynək"in altına gümüş, qızılı saplarla naxışlanan, üstündəki naxışa aynalı biserli adı vərilən "mavi üçətək" dən ibarət olur [186, s.36-51]. Kütahyada istifadə olunan digər gəlin geyimlərindəki "al köynək", "tefe başı" (fermenə, don, çintiyan), "gəlin örtüyü" (**al duvaq**) dən başqa, "biserli", "aynalı" və "süpürgəli biser", "dizi bağlı", "əyrimli", "çatqılı", "dallı" adlanan, hər birinin tikilməsi peşəkarlıq tələb edən şalvar dəstləridir.

Fəslin **"Muğla və Kütahya bölgəsi baş geyimləri və aksessuarların bədii xüsusiyyətləri"** adlı **2 paraqrafında** vurğulanır ki, Muğla və Kütahya bölgəsi əhalisinin baş geyimləri, geyim dəstinə daxil olan, onun ayrılmaz atributu sayılan bəzəklər, zinət əşyaları çoxçeşidli və rəngarəng idi. Qeyd olunur ki, bu bölgələrdə qadınlar və kişilər öz inanclarını baş geyimlərinin, bəzəklərinin rəngləri ilə izah edirdilər. Köyceyizde evli olan qadınların baş örtüklərində ən çox istifadə etdiyi motivlər (oya adlanan naxışlar), "nar ağacı", "toy çiçəyi", "lalə", "qərənfil", "sünbül" kimi nəbati formalı bəzəklər dir. Muğla və Kütahya baş-bəzək geyimləri insanın iqtisadi-sosial vəziyyətindən, yaşından və cinsindən asılı olaraq inanclara əsaslanaraq tərtib edilirdi.

Muğla mərkəzi ilə kənd və qəsəbələrdə (Milas daxil) qadınlarının baş geyimləri "sakağı", "çəki", "yaylıq", "üsküf", "mövsüm çiçəyi", "heril", "araxçın", "təpəlik" və "dal almaz" idi. Muğla qadınlarının çoxu "şamı"yı örtüyünün altından kiçik araxçın – "sakağılı araxçın" geyinərdilər. Məxməri və ya nar çiçəyi rəngdə olan araxçının qulaq tərəfindən bir lent taxılırdı ki, bu da araxçının düşməməsinə kömək edirdi. Bu lentin üzərinə iyirmilik qızıllar düzülürdü. Muğla qadın baş örtüklərindən sayılan, üzərində naxışları olan "dastar"a, məhəlli olaraq "yanış" deyilir. Zövqə uyğun olaraq kənarlarına muncuq tikilən yanış-

dastar çeşidləri - “farda yanış”, “sülük”, “dəvə boynu”, “çonak yanış” və s. bərkidilirdi. Yağlıq-yazma üzərində motivləri olan, kənarlarına muncuq və ya naxış işlənən baş geyimidir.

Qızların saçları gəlin olana qədər kəsilməz, iki və ya “qırxdənəm” saçı formasında hörülürdü. Bunlara “marçıl-mançur” deyilirdi. Sakağı qızıldan və sadəcə alını örtəcək şəkildə bağlanan, baş tərəfinin hamısını örtən ipək, krem rəngli lent isə “çəki” adı ilə tanınırdı. Muğlanın mərkəzində yaşayan qadınlar boyunlarına beşibirlik qızıl və qum inci kimi dəstlər taxırdılar. Göz və qaşlara sürmə çəkir, orta yaşdan etibarən başlarına xına yaxar, gəlinlərin üzlərinə isə qızılı kiçik ulduzlar yapışdırırdılar. Nadir hallarda saç yana tökülürdü. Qollara isə qızıl və ya gümüşü şüşə bilərzik taxılırdı. Muğla qadın geyimlərində ən çox istifadə edilən rənglər isə qırmızı, mavi, bənövşəyi və sarı idi.

Toy, bayram və qonaqlıqlarda, xüsusi ilə varlı ailələrin qadınları tərəfindən istifadə edilən “almaz taclar” Yerkəsikdə bir neçə ailədə olmuşdur. Bu almaz tac Muğladakı zəngin ailələrin də sahib olduğu bir dəst idi və qaynanadan gəlininə miras kimi keçən ailə yadigarı sayılırdı. Gəlinliyin üstünə və ya toylarda geyimlərin tamamlayıcısı kimi başın təpə hissəsinə taxılan “təpəlik” adlı bəzəklərin ətrafına çoxsayda qızıl düzülürdü. Yumru bir metal formasında olan təpəliyin başdan düşməməsi üçün boyunun altından keçirilən qayışının üzərinə də əlavə maddi imkan daxilində qızıllar taxılırdı.

Marmarisdə yaşlı qadınlar baş örtüyü kimi yerli toxuma parça olan və örtüyə oxşayan “dastar” ya da “fıta” adlı parçadan istifadə edirdilər. Kəndlərdə isə “tavas toxuması” adlandırılan 120x140 sm. ölçüsündə dördbucaqlı və ya ağ “akseten” istifadə edirdilər. Subay qızlar zolaqlı və dördbucaqlı parçadan olan baş örtüklərin çənə nahiyəsinə qızıl bağlayar, üzləri isə açıq olurdu. Kəndlərdə isə örtük, çənə altından dolandıqdan sonra başın üstündə bağlanılırdı.

Kütahya mərkəzində də qadınlar üçün bəzək əşyaları böyük əhəmiyyət daşıyırdı. Belə ki, gəlinin başı alın hissəsini tək sıra qızıl, almaz daşlar istifadə edilən araxçın bəzədilir. Boyuna isə göbəyə kimi uzanan “göbək qızılı” taxılırdı. Bu qızılın

aralarına istəyə görə beşibirlik və sarı lirələr əlavə edilə bilərdi. Qızıldan başqa çiçək və yarpaq motivli almaz gərdanlıq və kiçik mirvari düzümləri taxılırdı. Boyuna taxılan almaz gərdanlığın sırğası və broşu da istifadə edilirdi. Uzun don geyinildikdə belə kəmər taxılırdı ki, o kəmər də əsasən anadan qıza ötürülür və evləndiyi gün atası tərəfindən evdən çıxmadan taxılırdı.

Muğla Mərkəzinin kişiləri qəhrəmanlıq, igidlik və heybər duyğularını geniş formada zeybək geyimləri geyinərdilər. Başlarına sərpuş kimi tünd qırmızı rəngli qısa və ya uzun saçaqlı bir araxçın geyinərdilər. Saçağı arxadan sallanan araxçın yaylıq kimi parçalarla və üzərinə də naxışlı "kefiyə" bağlanırdı.

Bodrum kənd kişiləri də başlarına üzərinə yaylıq, şal və bəzən də sarıq bağlayaraq araxçın geyinərdilər.

Tədqiqatın **"Türkiyənin Egey Bölgəsinin İzmir və Denizli geyimlərinin bədii xüsusiyyətləri"** adlı **II fəslin "İzmir və Denizli bölgəsinin üst geyim dəstlərinin özünəməxsusluğu"** adlı **1 paraqrafında** qeyd olunur ki, İzmir milli geyimindəki zənginliyin səbəbi olduqca fərqli xüsusiyyətlərə əsaslanır. Bu xüsusiyyətləri də bəzən İzmirdə yaşayan türkmənlərə, bəzən cepni türkmənlərinə, bəzən üsküdarlı türkmənlərə, bəzən də yörük olmalarına əsaslandıra bilərik. Ancaq bu geyim zənginliyi bir tərəfdən insanların maddi durumu ilə də bağlı idi.

İzmir qadınlarının geyindiyi kostyumlar əsasən ipək "şalvar" (çitari adlanan, zolaqlı parçadan hazırlanan), "bürümcük köynək", şalvarın parçasından hazırlanan "üçətək", kilim toxumalı "önlük", "arxalıq", başda "təpəlik", "naxışlı yaylıq" və "çəki"dən ibarət olur. İzmir geyimi yörük, türkmən (ələvi məzhəbindən olan türklər) və çepni (Rumeli və Anadoluda yaşayan oğuz-türkmən boylarından, soylarından biri) mədəniyyətində hər hansı sahəyə aid olma, zəngin və yoxsul, bürokrat, kənd ya da tacir olmaq kimi statuslara əsasən olduqca çoxçeşidliliklə qarşımıza çıxır. Bunlardan yörük (Hənəfi məzhəbindən olan türklər) geyimləri bütün Anadoluda qadın geyimi ünsürü olaraq istifadə edilən ağ rəngli "köynək" geyim xüsusiyyəti daşıyır. "Çəpkən" isə köynəyin üstündən geyinilən,

ağ, bənövşəyi və ya əsasən al rəngli “çitari” parçasından hazırlanan bir geyim növüdür.

İzmir və Denizlidə insanlar öz inam və etiqadını geyimləri, onların rəngləri ilə izah edirdilər. Belə ki, top adlı çılkaklar sayca üç, beş, yeddi, on iki olaraq hər biri on iki imam simvolunu təqdim edirdi. Çepni gəlininin çılkaklı toxuma kəmərinin üstünə tikilən çılkaklar və düymələr (72 muncuq və düymə) isə Kərbala şəhidlərini ifadə edirdi. On dörd saçaq məsumların pak sayı qədərdir kimi bir fərq mövcuddur ki, bu inamı ifadə edən sosioloji bir göstərici olmuşdur.

Denizli qadınlarının geyim dəstinə köynək, üçətək, şalvar, dəlmə-kirlik, pencək, arxalıq, önlük daxil idi. Üçətəyin altından qadınlar içlik geyinirdi, buna Denizlidə köynək deyilirdi. Geyimdəki məqsəd açıq qalan sinənin örtülməsidir və üstü qızılı sapla və ya qaytanla naxışlanır. Bəzi yerlərdə bu element sinəlik olaraq istifadə edilir. Uşaqlı qadınlar-analar altdan “bartlak” geyinirlər.

İzmir kişilərinin geyim növləri “bürümcek”, “mintan”, “kəmər”, “camadan”, “çəpkən”, “sallama”, “potur”, “fermene”, “Trablus kəməri”dir. Bu ərazidəki kişilərin efe, zeybək və qızan geyimlərində oxşar, fərqli xüsusiyyətləri vardır ki, bunlar da məmulatın rəngində, geyim elementlərinin konstruktiv həllində, paltarın geyinmə tərzində, aksessuarlarda, bədii tərtibatda özünü göstərirdi.

İzmir ve Denizlinin geyim dəstlərində istifadə olunan çitare adlanan parça sözün tam mənasında bədii xüsusiyyət kimi ortaya çıxan bir sənətkarlıq əsəridir. Parçanın toxunuşu, bədii tərtibatında iştirak edən nəbati ornamentdə – çiçəkdə, hər yarpaqda incə olan pitoresk naxışı gözəl təsir yaradır və məmulatın bədii dəyərini təşkil edən xüsusiyyəti kimi meydana çıxırdı.

İzmirdə gəlin geyimi atlasın üstünə zərli sapla işlənən gəlinlik və yaxalıqdan ibarət olur. Bergamada nişanlı qız, evli qadın və ya gəlin geyimi isə su yolu naxışlı zərli sapla işlənən qara qaytan naxışlı bəzəkli şalvar, pencək, şıptellidən üçətək, kəmərdən ibarətdir.

Denizli ərazisində qadın geyimlərində fərqli adlar mövcuddur: Çalda "bənövşəyi qaşıq sapı", "muncuqlu qutnu" kimi əba, Çivrildə "buzlu fistan", "güllü basma", Babadağda isə "muncuqlu əba", "sikkəli əba" adlarını daşıyır. İpək, zərli məxmərdən tikilən üçətəklər və mindallılar Denizlinin hər rayonunda geyinilir, lakin adları ilə fərqlənirlər.

Fəslin **"İzmir və Denizli bölgəsinin baş geyimləri və zinət əşyalarının özəlliyi"** adlı **2 paraqrafında** qeyd olunur ki, İzmir və Denizli bölgəsində geyim dəstlərinə daxil olan baş geyimləri və aksessuarları zəngin çeşidliyi ilə seçilirlər. İzmir türkmən qadınının baş bağlama forması onun evli olub olmadığını müəyyən edən sosial bir simvol hesab olunurdu. Onların baş geyimində istifadə edilən dəstləri "iç tərlik", "çuxalı kətan", "allı yaylıq", "perperi", "tomaka" kimi nümunələr idi. Bunlardan "iç tərlik", "ağ toxuma", "çitari", "altıbarmaq" və s. müxtəlif materialdan hazırlanan, əsas başlığın altına geyinilən və funksiyası başın tərini almaq idi.

İzmir qadınları bəzək əşyası kimi əsasən quru qərənfillərdən, muncuqlardan düzülmüş uzun bir boyunbağı yaradılır. Qərənfilli bəzək əşyası gözəl qoxmasına görə ətir məqsədi də daşıyırdı. İzmirin Bergama bölgəsində olan Kozak yaylasında şam ağacından hazırlanmış boyunbağılar da vardır ki, onlar "üçləmə" adı ilə tanınır. Türkmən qadınları boyuna gümüşü dəstlər də taxırdılar. Denizlidə qadınlar əyinlərinə, qollarına, əllərinə müxtəlif dəstlər taxırlar. Bunlardan boyuna taxılanlar sarı muncuq düzümü, beşi bir yerdə səksənlik qızıl düzümü, qızıl ya da gümüş boyunbağı, gümüş gərdanlıq, mirvari muncuq, zəncir qulağa isə gümüş və ya qızıl sırğa taxılırdı. Qollarına da gümüş ya da qızıl bilərzik, muncuq düzümlü qızıl ya da gümüş üzüklə birlikdə gümüş kəmər, rəngli naxışlı şal kəmər istifadə edilirdi.

Denizli kişiləri isə başlarına tünd qırmızı, nar çiçəyi rəngi, keçədən hazırlanan "qotazlı araxçın" taxırdılar. Araxçının ətrafına tünd rəngdə "poşu" dolayırdılar. Araxçının üstünə fərqli rənglərdə çiçək motivlərinin işləndiyi naxışlı "dalıburuz" sarılırdı, ortasına taxılan qara qotaz dalıburuzun altından geçirilərək sallanırdı.

Denizli mərkəzində kişi milli geyiminin tamamlayıcısı olan bəzək əşyaları ətraf, silahlıq, köstək və bazubənddən ibarətdir. Ətraf, beldəki şal kəmərinin üstünə taxılır. Zeybəyin nişanlısından gələn nişanlılıq simvolu kimi bellərinə kolonu sarıdıqları kimi dolanırdı. Silahlıq şal kəmərin üstünə taxılan dəridən hazırlanan bir hissədir. Onun içinə bıçaq və piştov adlı odlu silahlar salınırdı. Bazubənd efelərin qollarına taxdığı örtüklü bir dəstdir.

Türkmən gəlinlərinin alın bəzəyi qırmızı və yaşıl “çəki”lərlə hazırlanmışdır. Alına gümüşdən “zülüflük” taxılır, onun ortasında üçbucaq formasında “həmail”, yanlarında isə iki kiçik həmail və ondan sallanan biserli çiçəklər taxılırdı ki, bu çiçəklər Hasan-Hüseyinin simvolu sayılırdı. Alnında müqəddəs saylara görə düzülmüş “alın dəsti”nə düzülmüş kiçik qızılların ortasındakı böyük qızıl birliyi işarə edirdi.

Dissertasiyanın **“Türkiyənin Egey Bölgəsinin Aydın və Manisa geyimlərinin bədii xüsusiyyətləri”** adlı **III fəslin “Aydın və Manisa bölgəsinin üst geyim dəstlərinin özünəxas cəhətləri”** adlı **1 paraqrafında** qeyd olunur ki, XIX əsrdə Aydınlı qadınlar əyinlərinə şalvar, üstündən “içlik” adlı “köynək”lər geyinirdilər. Köynəyin üstünə geniş qollu “çəpkən” geyinilirdi. “Peştamal” adı vərilən qırmızı çizgili, ipək örtüklər isə belə dolanırdı. Aydının rayon və kəndlərində geyimin fərqli xüsusiyyətlərini əks etdirən Şehirlilər, Türkmenler, Alevilər, Yörükler kimi qrupların ortaq geyim nümunələri isə “şalvar”, “köynək”, “üçətək”, “fermilə” və “zıbın” təşkil edirdi. Bu ərazidə “köynək-göynək” adlanan köynəklər, pambıq və ipək toxuma parçadan hazırlanırdı. Əsasən şəhərli və ələvi kəndlərindəki qadınlar ümumiyyətlə ipəyə üstünlük verirdi. Ələvilərdə istifadə edilən “önlük” sinəliyin üstü biserlərlə bəzədilir və üç ətəyin üstünə və ya içinə salınırdı.

Aydın ərazisində qadınlar “bürümcək” (köynək), “üçətək” (zıbın), “fermilə”, “şal quşaq”, “toqqalı kəmər”, “uçqur”, “qoca don”dan istifadə edirlər. Bunlardan ipək və ya ipək qarışığı pambıqlı toxumdan hazırlanan bürümcək bu gün belə istifadədədir, bölgə kəndlərinin hər evin sandığında 20-40 qədər

bürümcük köynək olur. Bunların naxışsız olanlarını kişilər də geyinə bilərdi. Üçətək altıbarmaq şitare parçadan hazırlanır və zıbın deyə adlandırılır. Altı barmaq şitare parça, ipək qarışığı əl dəzgah parçası olub Gaziantepdə toxunuq. Altı barmaq adı şaquli xətlərin fərqli – yaşıl, sarı, narıncı və tünd bənövşəyi kimi digər rənglərin düzülüşünün altı kombinasiyadan götürülüb. “Fermilə” (çəpkən) isə Aydın ərazisində şitare, uskufa və ya məxmər parçadan hazırlanmışdır. Yaşıl, bönövşəyi, çəhrayı rəngli məxmər çəpkənlər nəbati ornamentlə – çiçək və yarpaq motivləri ilə naxışlanıb. Aydın qadınlarının istifadə etdiyi burnu və dabanı tünd qırmızı rəngdə olan yun corabı onun rənginə əsasən xınalı adlandırırlar. Ayaqqabı növü olan zennə isə əsasən qara dəridən, kiçik dabanlı, qabaq tərəfdən toqqalıdır.

“Dizlik”, “corab”, “düyməli camadan” və s. geyim əşyaları ortaq geyimlər olaraq sadəcə Ödemiş və Aydın geyimlərində istifadə edilərkən, Denizli və Muğlada işlənilmir. Ödemiş geyimlərinin səthi tamam naxışlanıb doldurularkən, Aydın geyimlərindəki ornamental motivlər seyrək yerləşdirilir, Denizli və Muğla geyimlərində isə xırda və daha seyrəkliyi ilə fərqlənən bir çox nümunə tapa bilərik. Bu fərqlər həm bəzi bədii xüsusiyyətlər təqdim edir, həm də bu şəhərlərin xüsusiyyətlərini simvollaşdırır.

Manisanın alevi kəndlərində paltarın önü və ətəyi rəngli saplarla “setik”, “əyri qara-qıvrımlı qara”, “bıtçı dişi”, “doğru kayma-sağa sürüşmə” kimi naxışlarla işlənmişdir. Aləvi olmayan kəndlərdə də köynəklər qırmızı, sarı, göy, bənövşəyi rənglərdə olur və “sirkəli parça” deyilən parçalarla işlənir. Aydın və Manisada geyim nümunələrinin rəngləri inam və etiqad fərqini ifadə etməklə sosioloji bir göstərici olmuşdur.

Manisa kişilərinin geyim dəstlərinə daxil olan “alt köynəyi”, “çubuqlu qutnu”, “zıbın”, “ağ mintan”, “çəpkən”, “dolğu kəməri”, “şal kəmər”, “kolon”, “silahlıq”, “peşkir” kimi nüsxələrin şəhər mərkəzindən uzaqlaşdıqca konstruktiv həlli dəyişilməmiş qalaraq bədii tərtibatı sadələşdirir, bu da özünü əsasən yaş fərqlərində biruzə verir.

Fəslin “**Aydın və Manisa bölgəsinin baş geyimləri və zinət bəzəkləri”** adlı **2 paraqrafında** göstərilir ki, tədqiq olunan ərazidə qadın və kişilərin çeşidli baş geyimləri var idi. Aydın qadınları başlarına “oyalı krep” (kiçik naxışlı yaylıq) taxar, üzərinə də “üstlük” adlanan ağ örtük örtərdilər. Bundan başqa “araxçın”, “incə tanəm” (taxma saç), “qrep”, “ulada”, “tel qırma” və s. nümunələr istifadə edilirdi.

Aydın qadınları “beşi bir yerdə”, “nəzər altını”, “bilərzik” və bunun kimi bəzək əşyaları istifadə edilirdi. Bunlardan “beşi bir yerdə” adı verilən ən böyük qızıllar qırmızı lentin üstünə taxılaraq boyuna taxılırdı. Bəzən onun əvəzinə 20-30 düzümdən ibarət mirvari də istifadə edilirdi. Bədnəzərdən qorunmaq üçün qızıl sağ və sol çiyinə taxılırdı ki, buna “nəzər qızılı” deyilirdi.

Manisa gəlinləri baş örtüyündə araxçından istifadə edirdilər. Gənc qız və nişanlı qız baş bəzəkləri xüsusi günlərdə və əyləncələrdə fərqliliyi ilə seçilirlər. Nişanlı qızlar “albezi” örtükləri, naxışlı yaylıqlardan istifadə edirdi. Gənc qızların yanaqlarında istifadə edilən tozaklar nişanlı qızlarda alına vurulurdu. Bu kimi fərqlər həm iqtisadi vəziyyəti, həm də ailə vəziyyəti (gənc qız-nişanlı qız-evli-subay-dul və s.) əks etdirmək baxımından, həm bədii ifadə, həm də sosioloji əhəmiyyət daşıyırdı. “Yörük urbası” geyinən yeni gəlin, uşaqlı, hamilə ya da yoldaşı əsgərlikdə olanların istifadə formasında baş bağlamış qadınların başlarındakı örtüklərdən onların evli ya da subay olduqları müəyyən edilirdi. Manisa gəlinlərinin baş örtüyü üzərindəki motivlərin “zelvəli”, “ınsıranlı”, “dualı”, “aylı”, “almalı”, “gavsaralı”, “çarklı”, “sərpməli” kimi adları vardır. Onlar məmulatların ancaq iki kənarına kontrast rənglərdə applikasiya edilərək Manisalı gəlinlərin bədii üstünlüklərinin əsası olaraq ortaya çıxırdı.

Toylarda, Manisa-Akhisar-Hanpaşa kəndi subay gənc qızların başına “cıva” deyilən tovuzquşunun quyruq tüklərindən yaranan bir dəstəni tac kimi taxırlar. Bu tac subay qız olmanın simvoludur nümunəsi Manisalı subay gənc qızların geyimlərinin bölgədən bölgəyə, kənddən kəndə zənginlik, rəngarənglik və orijinallıq təqdim etdiyini ortaya qoydu.

Bu dövrdə kişilərin geydikləri qırmızı araxçının üstünə sarılmış yaylığın naxışları diqqət çəkir. Mil və ya iynə ilə işlənən naxışlar zəngin bitki motivləri kimi təqdim edilmişdir. Çoxrəngli olaraq, onlar kişi geyimlərinə ayrı bir estetika qatırlar. Qadının incə ruhunu, səbrini, bacarığını, kişinin qadına sevgisini göstərməyi baxımından əhəmiyyət daşıyıb. Manisa kişilərinin efe geyimlərindəki baş bəzəkləri ən mühüm və bədii xüsusiyyət daşıyıcıları idi.

**Nəticədə** tədqiqatda aşağıdakı qənaətlər əldə olunmuşdur:

- XIX əsrdə Türkiyənin Egey bölgəsinə daxil olan Muğla, Kütahya, İzmir, Denizli, Aydın və Manisa şəhərlərində istifadə edilən milli geyimlərin maddi dəyəri insanların iqtisadi durumları ilə bağlı idi;
- Geyim dəstlərinin, o cümlədən mərasim geyimlərinin bədii tərtibatı inam və etiqadlarla bağlı idi;
- Egey bölgəsinin əksər şəhərlərində geyilən ipək, zərli məxmərdən tikilən üçətəklər və mindallıların adları müxtəlif bölgələrdə fərqli səslənir;
- Egey bölgəsində yaşayan çepni, türkmənlərin gəlin geyimləri bir-birinə münasibətdə göstərdikləri fərqlilikləri və oxşarlıqları ilə səciyyələndirilmişdir;
- XIX əsr Ege bölgəsi milli geyimlərində istifadə olunmuş rəng, parça, konstrukriv quruluş, tikiş texnikası, bəzək-zinət əşyalarının çeşidliyi ilə həm bədii, həm estetik, həm də yaradıcılıq baxımından bir çox zəngin məna və simvollara malikdir;
- Egey bölgəsinin XIX əsr milli geyimləri xalqın dini inancları, sosial vəziyyətləri, yaşı, ailə vəziyyətlərindən asılı olaraq fərqlənirdi;
- XIX əsrdə Osmanlı İmperatorluğunda, o cümlədən Egey bölgəsində heç bir texnologiya, istehsal və sənaye olmadığı üçün geyimlərdə istifadə olunan və təbiətdən seçilən materiallar paltar hazırlayan qadınların estetik, bədii, emosional və sosial yönlərini üzə çıxarır;
- Parçaların tərtibatında xalq sənəti motivlərindən, milli ornamentlərdən, təbiətdən götürülən naxışlardan istifadə

edilmişdir. Belə parçalardan tikilmiş geyim dəstlərinin sadə biçimləri parçaların bədii keyfiyyətlərini qabardır və aydın qavramağa imkan verirdi;

- Geyim dəstinə daxil olan bəzəklərdə və aksessuarlarda xalq motivlərindən istifadə edilmişdir. Zərgərlik bəzəkləri geyim ansamblının tərkibində formalaşaraq dəbin inkişaf təmayülləri ilə birgə dəyişirdi;

Bu araşdırmada Egey bölgəsinin gündəlik geyim dilindən demək olar ki, heç istifadə olunmayan, itən və ya unudulan təxminən 800 geyim sözü müəyyən edilib. Orta hesabla 800-ə yaxın olan bu geyim sözlərindən 130-a yaxını terminoloji lüğətdə, qalan sözləri isə (19-cu əsrdə olduğu kimi) dissertasiyada izah etməklə türkcənin dil zənginliyinə daxil edilməsi məqsəd qoyulmuşdur.

- XIX əsr Egey bölgəsinə istifadədə olan bir çox geyim nümunələri, o cümlədən çəpkən, yaşmaq, şalvar, məst, məcdiyyə (türkcə məcidiyə), ləbbadə (türkcə libadə), külah, qurşaq (türkcə kuşak) və s. həmin dövr Azərbaycan milli geyimlərində də işlənilib ki, bu da iki türk xalqının ortaq mədəniyyətə sahib olduğunun sübutudur.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**

1. Türkiyənin Muğla Rayonunun Marmaris ərazisindəki Söyüd kəndinin baş örtükləri və zinət əşyaları // "Sivilizasiya". Bakı Avrasiya Universiteti. № 6, Bakı, 2015 – s. 201-207.
2. Türkiyənin Muğla rayonunun Marmaris ərazisindəki Söyüd kəndində üst və ayaq milli geyimlərinin səciyyəvi xüsusiyyətləri // "Təsviri və dekorativ-tətbiqi sənət məsələləri". Azərbaycan Xalça Muzeyi. № 3(17), Bakı, 2015 – s. 91-97.
3. XIX əsrdə istifadə olunan Muğla-Yerkəsik milli geyimləri və xüsusiyyətləri // "Mədəniyyət dünyası". Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universiteti. № XXXI, Bakı, 2016 – s.156-162.
4. Muğla İli-Düğerek Köyü tarihi, karakteristik 19. Yy giyimleri ve başbağlama kültürü". Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt 11, Sayı 60.– Türkiye Cumhuriyeti. (e-dergi) – 2018 – s. 499-509.
5. 19th Century, Clothing History and Clothing Culture of Aydin City (Turkey-Aegean region) // Paradigmata poznani, №1. Praga, 2019 – p. 54-57.
6. XIX əsrdə Muğla Yerkesiyin milli geyimləri // "Axtarışlar" Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu, №1, cild 13. Naxçıvan, 2020 – s.123-129.
7. XIX Century National Costumes Of Muğla Women // Ministry of Education and Science of Ukraine Drohobych Ivan Franko State Pedagogical University Young Scientists Council. Science Current Issues. Issue 43, volume 2 – Drohobych-Ukraine, 2021 – p. 62-66.
8. Muğla rayonu Ula qəzasında XIX əsrdə istifadə edilən milli geyimlər // "Axtarışlar". Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu, №1, cild 16. Naxçıvan, 2022 – s. 220-227.

9. Muğla İli-Milas İlçesi-Çomakdağ köyündeki mekaniçi süslemelerde kullanılan ‘Hayat Ağacı’ motifleri // Beynəlxalq konfrans, IFAS-International Fine Arts Symposium- Selçuk Üniversitesi, Güzel Sanatlar Fakültesi & Sanat ve Tasarım Fakültesi. 12-13 November 2015, Konya – s.10-37.
10. Muğla İli-Milas İlçesi-Çomakdağ köyündeki yaneş don işlemelerinde kullanılan “Hayat Ağacı” motifleri // Gazi Üniversitesi, Sanat ve Tasarım Fakültesi, 2. Uluslararası Sanat Sempozyumu Bildiri Kitabı Cilt 1. 05-07 Kasım 2015, Ankara – s.341-353.
11. Головные уборы для жителей в Улайском уезде провинции Мугла до провозглашения республики // – Pyatiqorsk: «Научные исследования всфере гуманитарных наук: открытия XXI века». Материалы V Международной практической конференции, –18-19 мая 2017 г. –171-178 s.

Dissertasiyanın müdafiəsi __26__ dekabr 2023-cü il tarixində saat 14:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının www.azda.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __22__ noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.11.2023

Kağızın formatı: A5

Həcm: 38281

Tiraj: 100